2020.- 10 oktyabr.- S.20.
iki sahil

# Azərbaycanın ədalət mübarizəsi dəstəklənir

## QARDAŞ TÜRKİYƏ HƏM REGİONDA, HƏM DƏ DÜNYADA SÖZ SAHİBİDİR



**Sivilizasiyalararası dialoq mərkəzi kimi tanınan Azərbaycanın bəşəri dəyərlərə sadiqliyi, insanlığa hörməti ölkəmizdə keçirilən mühüm beynəlxalq forumlarda, dialoqlarda yüksək qiymətləndirilir. Müxtəlif dinlərə məxsus millətlərə dünyada sülhün və əmin-amanlığın qorunması naminə edilən çağırışlar da Azərbaycandan səslənmişdir. Son günlərdə Ermənistanın Azərbaycana qarşı təxribatları nəticəsində davam edən müharibədə xalqımızın haqq işini, torpaqlarımızın işğaldan azad edilməsi uğrundakı mübarizəsini dəstəkləyən dövlətlər erməni silahlılarının mülki insanların qətlə yetirilməsini bəşəri cinayət adlandırır və pisləyirlər.**

Belə ağır günlərdə Azərbaycana mənəvi dəstək olan müsəlman dövlətlərinin ölkəmizlə həmrəyliyi daha vacibdir. Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən olan Pakistanın ölkəmizlə möhkəmlənən əməkdaşlığı daha artıq hiss olunur. Paytaxtımızda Azərbaycanın, Türkiyənin, Pakistanın dövlət bayraqlarının qoşa asıldığı ünvanların sayı artır.

Dağlıq Qarabağ münaqişəsi başlanan gündən Azərbaycanla həmrəyliyini siyasi, diplomatik, hərbi sahədə göstərdiyi dəstəyi ilə bildirən qardaş Türkiyənin daim Azərbaycanın yanında olması, cəbhədə baş verənlərlə daim maraqlanması təkcə Ermənistanı deyil, işğalçını dəstəkləyən havadarlarını da diksindirir. İşğal altında qalan torpaqlarımız uğrunda döyüşlərin intensivləşdiyi bir məqamda Türkiyənin diplomatik, hərbi nümayəndələrinin ölkəmizə rəsmi səfərləri, Ermənistana ünvanlanan ciddi xəbərdarlıqlar İslam həmrəyliyinin də ifadəsidir.

Təkcə Türkiyənin deyil, Pakistanın,Əfqanıstanın, Şimali Kiprin, Bosniya və Herseqovinanın, başqa müsəlman ölkələrinin Azərbaycanın haqq, ədalət uğrunda mübarizəsini dəstəkləməsi islam həmrəyliyinin dünya dövlətlərinə terrorçu, separatçı Ermənistana qarşı etiraz çağırışıdır. Azərbaycanın rayonlarını intensiv atəşə məruz qoyan Ermənistanın mülki əhalini hədəf seçməsi, uşaqları qətlə yetirməsi işğalçının faşist ideologiyasına sadiqliyini dünyaya bəyan edir. Prezident İlham Əliyevin "Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib. Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub" sözlərini təsdiqləyən erməni cəlladlarının vəhşiliyi nəticəsində qətlə yetirilənlər üçün cinayət məsuliyyəti daşımalı olan Ermənistanın təmas xəttindən kənarda yerləşən ərazilərimizi də toplardan, iri çaplı pulemyotlardan atəşə tutması, insanların daha sıx məskunlaşdığı ərazilərə bombalar yağdırması faşizmə xas qəddarlıqdır.

Ermənistanın bu hərəkəti dünyada törədilən terrorları İslam dini ilə əlaqələndirən, müsəlmanlar haqqında fobiya yaradan xristian dini radikal qruplaşmalarının illərdən bəri apardıqları təbliğatları altüst edir. Artıq bütün dünya ictimaiyyəti bilir ki, Ermənistanda islamofobiya pik həddinə çatıb. Erməni faşistlərinin Azərbaycanın dinc vətəndaşlarına qarşı törətdikləri terrorları qətiyyətlə pisləyən dövlətlər bəyanatlarında bildirirlər ki, tolerant ölkə olan Azərbaycanda multikulturalizm bu ölkənin həyat tərzidir və islamofobiyaya qarşı açıq mübarizə aparır. Təcavüzkar Ermənistanı dəstəkləyən Fransanın prezidenti Emmanuel Makrona xatırladaq ki, təkcə İslami deyil, bəşəri dəyərlərə, başqa dinlərə hörmətlə yanaşan Azərbaycanın multikultural ənənələrə sadiqliyi beynəlxalq səviyyədə özünü doğruldur. Bəşəriyyətə məxsus tarix və mədəniyyət abidələrindən sayılan Versal sarayı parkında mədəniyyət abidələrinin, Berlin qəsrinin, Romadakı Kapitoli Muzeyindəki "Filosoflar zalı"nın və başqa abidələrin təmir və bərpasının təşəbbüskarı olan Azərbaycanın Birinci vitse-prezidenti, İSESCO-nun, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva bəşəri ideyaları, prinsipləri əks etdirən təşəbbüsləri ilə Azərbaycanı dünyada tolerantlıq ənənələrinə malik ölkə, çoxkonfessiyalı dövlət kimi təbliğ edir.

Yerli telekanallara müsahibəsində bu məsələyə münasibətini bildirən Prezident İlham Əliyev "Biz o ölkələrdənik ki, əməldə İslam həmrəyliyinə daim öz xarici siyasətimizdə böyük yer ayırmışıq. Mənim xarici siyasət istiqamətləri ilə çıxışlarımda siz bunu görə bilərsiniz. Əsas prioritetlərdən biri müsəlman ölkələri ilə əlaqələrdir. Çünki biz müsəlman dünyasının bir hissəsiyik. Bizi BMT-də ən çox dəstəkləyən ölkələr də müsəlman ölkələridir" sözləri İslam həmrəyliyinin sarsılmazlığını göstərir.

Bu gün də Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük güc olan qardaş ölkə var. Bu dəstək torpaqlarımız uğrunda döyüşən əsgərlərimizi ruhlandırır, onlara əlavə güc verir. Azərbaycanın yanında olan Türkiyə bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün öz köməyini əsirgəmir. "Mən bunu bu günlər ərzində demişəm ki, Türkiyə bölgədə sabitləşdirici rol oynayır. Türkiyənin bölgədə və dünyada yalnız sülhə hesablanmış siyasəti artıq öz nəticələrini verməkdədir, həm Yaxın Şərq bölgəsində, eyni zamanda, Qafqaz bölgəsində. Ona görə Ermənistanın növbəti hücumu ilə əlaqədar bu gün yaranmış vəziyyət bir daha onu göstərir ki, Türkiyə həm regionda, həm dünyada söz sahibidir" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, bu güc Türkiyə-Azərbaycan birliyinin əbədilik rəmzidir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***